# PSİXOLOJİ DƏDƏ QORQUDŞÜNASLIQ

## TƏPƏGÖZ FENOMENİNİN PSİXOLOJİ TƏHLİLİ

*Ceyhun Qurbanalı oğlu Alıyev 1967-ci il sentyabr ayının 3-də Şamaxı rayonunda anadan olmuşdur. 1990-cı ildən orta məktəbdə pedaqoji fəaliyyətə başlamışdır. 1993-1995 ci illərdə Şamaxı rayon Bağırlı kənd orta məktəbində müəllim, direktor müavini vəzifəsində çalışmışdır. 1995-ci ildə Bakı Dövlət Universitetində Psixologiya kafedrasının dissertantı olmuş, 1998-ci ildə professor Ə.S.Bayramovun elmi rəhbərliyi ilə namizədlik dissertasiyasını müdafiə etmiş və psixologiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüşdür.*

*1995-2008 illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi Psixologiya" kafedrasında çalışmışdır. 2008-ci ildən Azərbaycan Dillər Universiteti "Psixologiya" kafedrasında dosent vəzifəsində işləyir. 2012-ci ildən 2018-ci ilə qədər ADU-nun Psixologiya kafedrasına rəhbərlik etmişdir. İndiyə kimi psixologiya sahəsinə aid 70-a yaxın elmi tezis, məqalə, metodik vəsait, proqram, dərslik və dərs vəsaitinin müəllifidir.*

*Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Psixologiyadan fəlsəfə doktoru üzrə İxtisaslaşdırılmış Müdafiə Şurasının, "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyinin idarə heyətinin eləcə də Azərbaycan Dillər Universiteti Elmi Xəbərlər jurnalının redaksiya heyətinin üzvüdür.*



Yaranış etibarı ilə Mif, Tanrı rəvayəti kimi qəbul oluna bilər. Tanrı insanlara vermək istədiyi mesajları ilham yolu ilə miflər vasitəsilə ötürüblər. Mifoloji təfəkkür insanlığın gələcəyə hazırlanması prosesinin ilk addımlarıdır. Böyük fransız antropoloqu L.Stross bu barədə yazır ki, mif - hələ verilməyən suala olan cavabdır.

Gündəlik həyatımızda "ağlıma gəldi" ifadəsini tez-tez işlədirik, lakin həmin ifadənin mahiyyəti üzərində düşünmürük. "Ağlımıza gələn" haradan gəlir, bu "gələn" bizim iradəmizdən kənardadırsa, görəsən, gələni göndərən kimdir? "Ağlıma gəldi" deyə, ifadə etdiyimiz olan ilhamdır. Fikrimizcə ilham, Yaradanla insan arasında bir əlaqə xəttidir. İlham, insanlığın başlanmasıdır. İlham qaynağı isə Günəş və Aydır. Ay və Günəş kainatda baş verən bütün hadisələrə, olub keçənlərə şahidlik edən, yaxud onları özündə hifz edən yer, İlahinin yaddaş mərkəzidir.

Belə demək olar ki, Yer kürəsində elə ərazilər, məkanlar və insanlar mövcuddur ki, onlar Allah tərəfindən ilhamın çatdırılması üçün vəzifələndirilmişlər. Oğuz diyarı və Dədə Qorqud məhz qeyd etdiyimiz xüsusiyyəti özündə əks etdirən məkan və insandır, desək, doğru olar. Elə "Kitabi - Dədə Qorqud"un müqəddiməsinə diqqət yetirsək, orada dastanın Tanrı mesajı olduğunu aydın şəkildə görə bilərik. Dastandan oxuyuruq: "Bayat boyından Qorqud ata deyərlər, bir ər. Oğuzun ol kişi tamam bilicisiydi. Nə dersə, olurdu. Qayibdən dürlü xəbər söylərdi. Haqq Taala anın könlünə ilham edərdi. [14,19]

Mif, insanın özünü təbiətin bir hissəsi kimi dərk etdiyi və onunla bir harmoniya içərisində xoşbəxt yaşadığı çağların məhsuludur. Bizcə mifyaratma, insanın təbiətdən uzaqlaşması, özünü ondan ayırması və ona öz gücünü göstərmə, onun üzərində ağalıq etmək iddiasına düşməsi ilə sona çatmışdır.

Müasir dövrdə insanların əksəriyyəti mifologiyanı, dastan, əfsanə və nağılları "xəyal məhsulu" hesab edirlər. O da bəllidir ki, insan mümkün olmayanı xəyal edə bilməz. Əgər biz, mifologiya, dastan, nağıl və əfsanələrimizdə əks olunanları, sanki, bir mikroskop altına salıb yenidən incələyərək təhlil etsək, görərik ki, müasir dövrdə süni intellekt, nanotexnologiya, tibb və genetika elminin məşğul olduğu məsələlərin bəziləri ya aşkar, ya da xüsusi olaraq şifrələnmiş şəkildə orada öz əksini tapmışdır. Qeyd edək ki, bəzilərinin "nağıl", "xəyal məhsulu" - deyib kiçik gördüyü mifoloji faktlar, qədim biliklər texniki cəhətdən inkişaf etmiş ölkələrdə elmi həqiqətə çevrilən müasir texnoloji yeniliklərin kökündə dayanır.

"Kitabi - Dədə Qorqud" dastanı canlı bir ensiklopediya kimi xalqımızın həm tarixi yaddaşı, elmi biliklər toplusu, milli özünüdərk, etnik-psixoloji, milli düşüncənin ifadəsi, həm də inkişafı üçün bir yol xəritəsidir.

"Kitabi -Dədə Qorqud" dastanı, "Basatın Təpəgözü öldürməsi" boyu, xüsusilə, Təpəgöz obrazı ilə bağlı M.H.Təhmasib, V.V.Bartold, Y.Yakubovski, V.M.Jirmunski, E.M.Meletenski, F.Sümər, O.Şaiq, F.Dits, K.Abdullayev, S.Əlizadə, A.Nəbiyev, Ə.Fərzəli, K.Vəliyev, M.Seyidov, S.Əliyarov, P.Mirabil və başqa tədqiqatçılar maraqlı mülahizələr irəli sürmüşlər.

Akademik Kamal Abdulla "Kitabi-Dədə Qorqud"la bağlı apardığı tədqiqatda, Təpəgöz obrazını ədəbiyyatımızın günah hissinin daşıyıcısı olan ilk personaj hesab edir. Öz günahını anlamasını Təpəgözün intihar arzusu kimi şərh edən yazıçı bu arzunu, əslində, bu personajın bədii-məntiqi sonu hesab edir. K.Abdulla şər qüvvəsi olan Təpəgözlə əsl Təpəgöz - günahını anlayan və yaşayan Təpəgöz arasında semantik boşluğun olduğunu qeyd edir. Təpəgöz obrazı ilə bağlı tədqiqatçının sual kimi qoyduğu məsələlərdən biri Təpəgözün nə üçün bir gözlü olmasıdır. Bu məsələdə Təpəgözü "Odisseya"dakı Polifemlə müqayisə edən müəllif hesab edir ki, Təpəgöz daha dolğun bir ömür yoluna malikdir. Təpəgözün təkgözlü yaradılış səbəbini izah etməyə çalışan alim bunu mifin məntiqinə uyğun izah edir və bu faktı mifin kiçik "bicliyi" adlandırır. Təpəgözün birgözlü yaradılış səbəbini Kamal Abdulla belə açıqlayır: "Süjetin strategiyası şərə qalib gəlmə ideyasının üzərində qurulduğundan və burada - Oğuzda Basatın, uzaq Yunanıstanda Odisseyin qalib gəlmələri son nəticə kimi əvvəlcədən müəyyənləşdirildiyindən taktiki dəyişmə, yəni ikigözlülüyün birgözlülüklə əvəz edilməsi, insanın-qəhrəman da olsa, təbii insanın fiziki imkanı ilə uyğun şəkildə həmahəngləşdirilib. İnsanın imkanlarından çıxış edərək ikinci zərbəni endirmək üçün ona verilən vaxta və həm də onun malik olduğu məharətə yəqin ki, bəlkə də, haqlı olaraq bel bağlamadığından Mif ikinci gözü əvvəlcədən "aradan götürür"- bu bədheybətlər adamdan tək gözlə doğulurlar [2,272]".

"Kitabi Dədə-Qorqud" dastanını ingilis dilinə tərcümə edən P.Mirabilin Təpəgözlə bağlı irəli sürdüyü mülahizə isə, belədir: "Qeyri-insani formaya və gücə malik olan Təpəgöz Avropa dastanlarındakı digər mifik qüvvələrdən onunla fərqlənir ki, onun damarlarında Oğuz qanı axır və onu Oğuz özü yaradıb və bəsləyib. Oğuz öz yaratdığının ehtiyacını ödəyə bilmir. Tələbatı ödənməyən Təpəgöz Oğuza müxalif çıxır". Mirabilə görə, Təpəgözü bir Monstra (bədheybət varlığa) çevirən Oğuzun özüdür"

Təpəgözlə bağlı Seyran Əliyevin [8, 200] qənaəti belədir ki, Təpəgöz zorlanmış kafir qızından törəmiş və Oğuza nifrət ruhunda tərbiyə olunan uşaqların ümumiləşmiş obrazıdır. S.Əliyevin fikrinin birinci tərəfi ilə razılaşırıq, lakin Təpəgözün Oğuza nifrət ruhunda tərbiyə olunması məsələsi bir qədər mübahisəlidir, çünki Təpəgöz Oğuz içində böyüdüyü üçün ona Oğuza nifrət ruhunda tərbiyə verilməsi məntiqi cəhətdən də düzgün sayıla bilməz. Təpəgözün zorlanmış qızdan törəməsi ilə Oğuza nifrət ruhunda tərbiyə olunması fərqli məsələlərdir.

Folklorşünas alim Azad Nəbiyev Təpəgözü yadplanetli məxluqların yer üzünə axını sonunda yaranan və insanlığa düşmən olan varlıq hesab edir. O, göstərir ki, Aruz Qoca Təpəgözü evinə gətirdikdən sonra tamam dəyişir. Onun Qazanla düşmənçiliyi hansısa psixoloji sarsıntı və gərginliklərdən, qəlbini didib parçalayan şübhələrdən doğur və artır. Elə bil ki, iki qəhrəman arasında ədavət, düşmənçilik Təpəgöz vasitəsilə onların düşüncəsinə ötürülür. Aruz Qocada Təpəgözə qarşı hansısa himayədarlıq, xilaskarlıq meyili nəzərə çarpır [16,171]. Deməli, Aruzun xilaskarlığı və himayədarlığı Təpəgözü öz evinə gətirməsi ona olan qayğı heç də mərhəmət hissindən irəli gəlmir. Onun köməyi və qayğısı, fikrimizcə, altrustik (təmənnasız) yox, eqoistik məzmun daşıyır. Yəni, Aruzun Təpəgözə kömək etməsinin motivində onun Qazana qarşı olan düşmənçilik hissi dayanır. Burada, "düşmənimin düşməni mənim dostumdur" - düsturu özünü biruzə verir. Qazana qarşı olan düşmənçiliyini aşkar surətdə aparmaqdan çəkinən Alp Aruz öz niyyətini bir qədər gizli formada, yəni, Təpəgöz vasitəsilə gerçəkləşdirir. Təpəgözə olan himayədarlıq, onu elə Təpəgöz kimi böyütmək. Oğuz eli üçün belə yetişdirməklə Alp Aruz düşmən hesab etdiyi Qazana qarşı düşmənçilik etmiş olur və bu yolla ondan qisas almaq istəyir. Təpəgözün Oğuz elində peyda olması, onda "təpəgözlük" xüsusiyyətinin formalaşması məhz Alp Aruzla şərtlənir. Təpəgözün Pəri qızının bətninə düşməsindən ta Oğuz elindən qovulana qədər bütün həyatı ya birbaşa, yaxud da dolayısı ilə Alp Aruzla əlaqəlidir. Belə ki, insestə (qadağan olunmuş cinsi əlaqə) əl atan Qonur Qoca Sarı çoban Aruzun çobanı idi. Daha sonra, Bayandır xanla gəzməyə çıxarkən rastlaşdıqları təəccüblü ət torbasının pərdəsi məhz Aruzun mahmızı ilə yırtılır. Üçüncüsü, patoloji sifət quruluşlu təkgözlü bir varlığı ətəyinə sarıyıb: "Xanım, bunu mənə verin, oğlum Basatla böyüdüm!", - deyən yenə də Aruz olur. Dördüncüsü, camaatın şikayəti Təpəgözü döyən-söyən və evindən qovan yenə Aruzdur. Deməli, Təpəgöz Aruzun İç Oğuz - Qazana qarşı olan nifrət və qəzəbinin yaşanılma forması, məkrli istəyinin məhsuludur, çünki Qazan "ədalətsizlik edərək" ədəti pozmuş, evini talan elətdirdikdə Daş Oğuz bəylərini dəvət etməmişdir. Bu məsələ ilə bağlı K.Abdulla yazır: "Heç düşündükmü Oğuziçi münaqişənin, yəni İç Oğuzla, Dış Oğuzun qanlı müharibəyə gətirən münaqişəsinin üzdə, formal qatda təqdim edilən səbəbi nədir?! Əlbəttə! Əlbəttə ədalətsizlikdir. Qazan xanın ədalətsizliyi." Kamal Abdulla Salur Qazanla Alp Aruz arasında olan düşmənçiliyin, kinin və ədavətin bir səbəbini də Aruz Qocanın: "Ağam Qazan, sası dinli Gürcüstan sərhədinə gedirsən, qorarğahının üstündə kimi qoyursan?"- sualına gözləmədiyi cavabı alması ilə əlaqələndirir [2,254].

Heç şübhəsiz, bu cür münasibətlər oğuziçi, qrupdaxili konfliktin yaranması ilə nəticələnmişdir və mifin Təpəgözü ortalığa çıxarması bütün bu ədalətsizliyə, oğuziçi konflikə olan cavab reaksiyası idi. Mif, Oğuzları sosial və əxlaqi normaları pozduğuna, buraxdıqları səhvlərə və etdikləri ədalətsizliyə görə, Təpəgöz vasitəsilə cəzalandırır. Amma, bu cəza Oğuz elinə ağrı vermək üçün yox, onu təmizləmək, saflaşdırmaq üçündür. Digər tərəfdən maraqlı olan cəhət odur ki, Təpəgöz Oğuz elinə qənim kəsilməsinə baxmayaraq, onlar vahiməyə düşüb yurdlarından qaçmağa istədikdə onların qarşısını alıb yeddi dəfə geri oturdaraq öz yurdlarında qalmağa məcbur edir. Mifin Təpəgözü bu missiya ilə vəzifələndirməsi onun Oğuz elinə olan münasibəti ilə bağlıdır. Oğuz tayfaları arasında olan çəkişmələr, münaqişələr, əsasən, İç Oğuz və Dış Oğuz arasında baş verir. Tayfadaxili çəkişmələr bütövlükdə Oğuzların gücdən düşməsinə, birlik və identiklik hissinin aşağı düşməsinə, "Biz" hissinin zəifləməsinə yol açırdı. Bu da Oğuz elinin xarici düşmən qüvvələri qarşısında məğlub olması ilə nəticələnə bilərdi. Bu baxımdan mif Təpəgözü ümumi şəkildə Oğuz elinə zaval, bəla göndərməklə, onları tayfadaxili çəkişmələrdən uzaqlaşdırmağa, umu-küsünü ataraq düçar olduqları bəlaya qarşı birləşərək mübarizə aparmağa sövq edir və məqsədinə nail olur. Boyun sonunda Basat Təpəgözü öldürmək üçün onun üstünə getdiyi ərəfədə Qalın Oğuz bəylərinin, o cümlədən, Salur Qazanın, Aruz Qocanın artıq bir arada olduğu təsvir edilir. Təpəgözün ölüm-dirim səhnəsində Basatla dialoqa girməsi, ona dəqiqləşdirici suallar verməsi, əslində, mifin ona yüklədiyi psixokorreksiyaedici və birləşdirici funksiyanı - Oğuz tayfaları arasında birlik və həmrəylyin olub-olmadığını yoxlamaq üçündür:

*Qalarda-qoparda yigit, yerin nə yerdir?*
*Qarannu dün üçün yol azsan, umun nədir?*
*Qaba ələm götürən xanınız kim qırış güni öndin?*
*Ağ saqqallu baban adı nədir?*
*Alp ərən ərdən adın yaşurmaq eyib olur,*
*Adın nədir, yigit, degil mana!-dedi.*

Basat deyir:

*Qalarda-qoparda yerim Günortac!*
*Qaranu dün içrə yol azsam, umum Allah!*
*Qaba aləm götürən xanımız - Bayandır xan!*
*Qırış güni öndin dəpən alpımız Salur oğlu Qazan.*
*Atam adın sorar olsan, - Qaba Ağac!*
*Anam adın deyərsən, -Qağan Ağac!*
*Mənim adım sorarsan,- Aruz oğlu Basatdır.-*
dedi!

Basatın cavabına əsasən, qənaətə gəlmək olar ki, mif Təpəgöz vasitəsilə Oğuz tayfaları arasında olan daxili münaqişələri aradan qaldıra bilmiş sülhə, birliyə nail olmuş, onları bir araya gətirərək məqsədinə çatmışdır. Deməli, əgər Təpəgöz Oğuzların öz yurdlarından vahiməyə düşərək qaçıb getmələrinə imkan versəydi, onda Oğuz elində birlik, ittifaq alınmazdı, tayfadaxili və tayfalararası münaqişə davam edərdi. Bu mənada "Əlahəzrət varlıq", Oğuz elini Təpəgözlə sınağa çəkir, onun vasitəsilə qrup psixodiaqnostikasını və psixokorreksiyasını gerçəkləşdirir.

Kamal Abdulla "Kitabi - Dədə Qorqud" dastanı ilə bağlı yazır: "Hər dəfə dastana müraciət edərkən o elə bil özünün yeni bir doğuluşunu yaşayır. Hər ona zillənən diqqətli baxış altında elə bil yenidən qol-qanad açır, sanki özünü silkələyir. Və bu zaman özünün əvvəllər bəlli olmayan, sezilməyən bir görünüşündə görünür. Sirriçindəliyi əriməyə başlayır" [2,76].

Bizim də dastana olan marağımız "Basatın Təpəgözü öldürdüyü boy"un sosial-psixoloji müstəvidən təhlilini verməklə, onun psixoloji qatlarını üzə çıxarmaq, psixoloji Qorqudşünaslığa xidmət etməkdir. Qeyd etmək lazımdır ki, burada Azərbaycan psixologiyasında ilk dəfə olaraq dastanın sosial-psixoloji aspektdən təhlilinə cəhd göstərilmişdir.

*(Davamı 11-ci səhifədə)*

# PSİXOLOJİ DƏDƏ QORQUDŞÜNASLIQ

## TƏPƏGÖZ FENOMENİNİN PSİXOLOJİ TƏHLİLİ

*(Əvvəli 10-cu səhifədə)*

Psixoloq Əkbər Bayramov "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası" adlı əsərinin "Kitabi-Dədə Qorqud"un ibrət dərsləri və ya bəzi nəticələri" adlı fəslində Təpəgözün timsalında qeyd edir ki, daxildən törəyən bəlaya, şər qüvvələrə qarşı mübarizəyə hazır olmaq, onu vaxtında aradan qaldırmaq etnosumuzun, xalqımızın diqqətindən kənarda qalmamalıdır. Bu ibrət dərsi onu təlqin edir ki, daxildən də, etnosun, xalqın öz içərisindən də "yad cisim" kimi çox ciddi bəla törənə bilər, belə bir ehtimalı heç vaxt nəzərdən qaçırmaq olmaz [6,128]. Müəllifin fikrincə, dastana Təpəgöz obrazının daxil edilməsi psixoloji cəhətdən iki məsələni diqqətə çatdırır. Birincisi, belə şər qüvvənin (oxu: Təpəgöz) törədiciləri, yəni onun valideynləri səma övladı sayılır. Burada sanki qəsdən belə qüvvə yer məkanından, Ana torpaqdan uzaqlaşdırılır. Bununla da, əslində, Təpəgöz Oğuz etnosuna yad bir varlıq kimi, öz içərisindən çıxması mümkün olmayan kənar bir bəla kimi təqdim edilir. Məhz Təpəgöz Oğuz elinə yad bir psixologiyaya malik olmasına görə, o, etnosdan çıxarılır, ondan kənarlaşdırılır. Burada etnosun düşüncə stereotipi onu qəbul etməyə imkan vermir, çünki o, "əslə bizimkilərə", "həqiqi oğuzlara" oxşamır, ona görə də, yalnız fiziki cəhətdən deyil, əsasən mənəvi cəhətdən eybəcərdi, qeyri-insanidir. Çünki, o, özünkülərə qənim kəsilib, qəddarlığı ilə onlara fəlakət gətirir. Ə.Bayramova görə, Təpəgöz obrazının psixoloji mənası ondan ibarətdir ki, gözlənilmədən öz içərimizdən də çox ciddi bəla törəyə bilər və öz xalqına, etnosuna qənim kəsilər, ona böyük fəlakətlər gətirə bilər. Təsadüfi deyildir ki, xalq təfəkküründə, xalq düşüncəsində "kənardan gələn bəla", "daxildən törəyən bəla" ilə az qarşılaşdırılmayıb. İkincisi, daha qorxulu və qəddar hesab olunub, məhz öz etnosuna, öz xalqına qənim kəsilib. Əslində, "kənar bəlaya" qarşı mübarizə etməyə insanlar nisbətən hazır olurlar, amma "daxili bəlanı" hər saat gözləmirlər [6,129].

Fikrimizcə, dastandakı Basat və Təpəgöz obrazlarının psixoloji təhlili Azərbaycan psixologiyası, xüsusilə uşaq, yaş, differensial, sosial və inkişaf psixologiyası üçün maraqlı tədqiqat materialları verə bilər. Bizə görə, hər iki obraz Azərbaycan mədəniyyəti üçün ilk "mauqli" uşaq obrazları kimi də qəbul edilə bilər.

Dastanla bağlı aparılan araşdırmaların əksəriyyətində Təpəgöz neqativ aspektdən təhlil edilir, onun vəhşiliyi, zalımlığı, insan ətinə susaması diqqət mərkəzinə gətirilir. Hesab edirik ki, bizim də bu obraza qeyd olunan aspektdən yanaşmamız fərqli nəticə almaq üçün yetərli ola bilməzdi. Təpəgözün təpəgözlüyünü onun irsi-genetik xüsusiyyətlərindən kənarda olan sosial-psixoloji mühitlə şərtlənməsi faktını diqqət mərkəzinə gətirsək, fərqli nəticə əldə edə bilərik. Bizə görə, Təpəgözün davranış və təfəkkür tərzini, digər psixoloji xüsusiyyətlərini yalnız onun irsi xüsusiyyətləri ilə əlaqələndirmək, çox primitiv izahdır, çünki mifin bu qədər primitiv izah oluna bilən obraza bir boyu həsr etməsi inandırıcı görünmür. Deməli, Təpəgözün metafizik bir obraz kimi təhlili bioloji və sosial, üstəgəl metafizik amillərin vəhdəti əsasında aparılması daha obyektiv olar.

Təpəgöz insestdən törəmiş mistik-mifoloji və metafizik varlıqdır. Dastanda Təpəgöz haqqında məlumat yalnız "Basatın Təpəgözü öldürdüyü boy"unda verilir. Dastanın başqa heç bir boyunda Təpəgözlə bağlı məlumata rast gəlinmir. Mif bu boyu verməklə, Təpəgöz obrazını təqdim etməklə nə demək istəyib, nəyi nəzərimizə çatdırmaq istəyib?

Dastanda qeyd olunur ki Təpəgöz, Qonur Qoca Sarı adlı çobanın yaylaqda Uzun Bulaq deyilən yerdə rastlaşdığı Pəri qızı ilə olan izdivacından əmələ gəlmişdir. Folklor ədəbiyyatında cazibədar qadın şəklində olan cin, huri qılman Pəri adlanır. Bəzən onları su pərisi də adlandırırlar. Pəri qızı ilə görüşün su hövzəsi kimi bulaq ətrafında olması heç də təsadüfi hadisə deyil. Belə ki, adi gözə görünməyən və insanlardan fərqli olaraq mayası "od" olan cinlərin su hövzələri ətrafında gəzib-dolaşması barədə folklor ədəbiyyatında çoxlu nümunələr mövcuddur.

Təpəgöz, insan oğlunun tamahının, nəfsinin məhsuludur. Qonur Qoca Sarı çoban insestə əl atmışdır və bu cür izdivacdan törəyən varlıq bəşər üçün faydalı ola bilməzdi. Qonur Qoca Sarının nəfsinin bəlasını bütün Oğuz eli yaşadı. Dastanda bu boyun verilməsi, həm də insan nəfsinin, xüsusilə, cinsi həyatla bağlı müəyyən olunmuş qadağalara riayət etməməyin törətdiyi fəsadların ağırlığını göstərir. Burada fərdi həyatla ictimai, sosial həyatın bir-birilə necə iç-içə keçdiyini, fərdi xətanın nəticələrinin böyük qrupa gətirdiyi problemlər üzə çıxır. Belə ki, Qonur Qoca Sarı çobanın tamah və nəfsinə sahib olmamasının acı nəticələrini tək özü yox, içində yaşadığı, üzvü olduğu böyük bir el-oba çəkir. Dastanda Pəri qızının qanad çalıb uçaraq: "Çoban, yil tamam olacaq məndə əmanətin var, gəl al!. Amma Oğuzun başına zaval gətürdün!" [14,125] - deməsi hadisələrin necə cərəyan edəcəyinə öncədən edilən bir xəbərdarlıqdır.

Qeyd etdiyimiz kimi insest - qadağan edilən nigah, cima deməkdir. Bəşər tarixinə nəzər saldıqda, insestdən doğulan insanların, əsasən şəri təmsil etmələri, insanlar arasında fitnə-fəsad törətmələri barədə çoxlu sayda faktlara rast gəlmək olur. Alman psixoloqu, Erik Fromm "İnsan destruktivliyinin anatomiyası" əsərində yazır ki, Adolf Hitlerin anası - Klara öz dayısı Alois Hitlerin arvadı olmuşdur və Hitler bu nigahdan doğulmuşdur [23,245].

Təpəgöz sevgidən yox, tamahdan, zorakılıqdan mayalanmış və il tamamında doğulmuşdur. O, arzu edilməyən cimadan dünyaya gəldiyi üçün onun fitrətində kin, nifrət vardır. Təbii ki, cəmiyyətdə bəzi hallarda belə əsaslı nigah və ya cima halı olur. Bu cür uşaqlara islam çərçivəsində vələdi-zina (zina övladı) deyirlər. Burada diqqət yetirilməsi vacib olan məsələlərdən biri odur ki, bu kateqoriyaya daxil olan uşaqların postnetal (doğulduqdan sonra) inkişaf mərhələsində qayğı və məhəbbət görmələri onların ətraf aləmə, insanlara münasibətini normallaşdırır və davranışlarında aqressivliyin və destruktivliyin təşəkkül tapmasının qarşısı alınır.

Təpəgözün düşdüyü vəziyyət isə ikiqat çətindir. O, bir tərəfdən, Pəri bətninə tamah və zor gücünə düşmüşdür. İkincisi, Pərinin özü, öz bətnində daşıdığı dölü elə, ilk andan bəla, zaval hesab edir. Deməli, Pərinin öz bətnində daşıdığına bəslədiyi münasibət, onu bəla kimi qavraması və qiymətləndirməsi dölə bəla, arzuedilməzlik proqramının yüklənməsi deməkdir.

Digər tərəfdən, Təpəgöz doğuşdan, ilk dəfə olaraq insanla qarşılaşanda aqressiya, zərbə, zədə ilə qarşılaşır. Özü də, ətraf aləmdən aldığı ilk zərbəni ona atası - Qonur Qoca Sarı çoban vurur. Görəsən, Təpəgözün bioloji, irsi xüsusiyyətləri onu avtomatik surətdə dastanda verildiyi kimi, aqressiv, qəddar, amansız, insanlara qənim kəsilən və hannibal etmək üçün yetərli idimi? Yoxsa, həmin xüsusiyyətlər adekvat mühitdə formalaşmışdır? Bu sual çox maraqlıdır. Nəzərə alsaq ki, dastandakı boylar, əsasən, sosial həyat hadisələri üzərində bərqərar olub, onda bioloji xüsusiyyətlərlə şərtlənən davranış tərzini ifadə edən bir obrazın sosial həyata daxil etməsi mifin məntiqinə uyğun gəlmir. Deməli, burada irsi keyfiyyətlərin təşəkkül tapmasında sosial mühitin rolu məsələsi ön plana çıxır.

İnsan davranışı bioloji və sosial xüsusiyyətlərdən və həmin xüsusiyyətlərin inkişafı üçün məqbul olan şəraitdən asılıdır. Bioloji amil anadangəlmə reaksiyaların əsasını təşkil edir və fərd sosial həyatda həmin bioloji əsasın hüdudlarını aşa bilmir. İnsan sosial həyatda mənimsədiklərini həmin sistemə uyğunlaşdırır. Fərdin reaksiyası - onun yaşadığı və inkişaf etdiyi mühitin strukturu ilə təyin edilir.

Razılaşmaq olar ki, Təpəgözün bəzi irsi xüsusiyyətləri onun insanlığa qarşı amansız və qəddar olmasını şərtləndirmişdir. Lakin onu da qeyd etməliyik ki, irsi xüsusiyyətlər birbaşa xarakter əlamətinə, davranış tərzinə çevrilmir. Fərdin irsi xüsusiyyətləri yalnız müvafiq münbit şəraitdə xarakter əlamətinə, fərdi-psixoloji xüsusiyyətə, təfəkkür və davranış tərzinə çevrilir. Məhz bu baxımdan, Təpəgözün irsi xüsusiyyətlərinin səciyyəvi əlamətə, təfəkkür və davranış tərzinə çevrilməsi onun Alp Aruzun evindəki sosial həyatla, ona bəslənən münasibətlə şərtlənir. Mifin, Təpəgözü Dış Oğuz bəylərilə - Alp Aruzla qarşılaşdırması və onun evinə gətirməsi mifin məntiqinə uyğun gəlir. Alp Aruzun "Oğuzun başına bəla olan" Təpəgözü öz evinə gətirməsi, əslində, onun İç Oğuza - Qazana olan düşmənçiliyini Təpəgöz vasitəsilə davam etdirməsidir. Təpəgöz, Aruzun Qazana-İç Oğuza qarşı gizli, xain arzusudur.

Maraq doğuran cəhət budur ki, çoban əvvəlcədən bilirdi ki, ilin sonunda o, öz əmanəti ilə qarşılaşacaq, yəni öz əməlinin, tamahının nəticəsini geri alacaq. Çünki bu barədə Pəri qızı ona xəbərdarlıq etmişdir. O, bunu əvvəlcədən bilsə belə, öz əmanətini - ət torbasını gördükdə onu qorumaq əvəzinə, sapand daşına tutur, ağrı verir. Təpəgözün dünyaya gəldikdə aldığı ilk fiziki zərbələri atası sayılan Qonur Qoca Sarı çobandan alır. Bundan sonra, Bayandır xan və onun bəyləri Təpəgözə rast gəlirlər. Yenidən Oğuz igidlərindən zərbə və zədə alan Təpəgöz Aruz qocanın bir-iki təpiyindən sonra, mahmızı ilə yırtılaraq pərdədən çıxır. Burada diqqəti çəkən məqam odur ki, Təpəgöz doğuşdan kiçik ət torbası boyda olur, lakin onun böyüməsi heç də təbii surətdə baş verən bioloji proses kimi getmir. Təpəgözün böyüməsi onun ətrafdakı adamlardan, yəni sosial mühitdən aldığı zərbələrlə şərtlənir. Təpəgöz nə qədər çox zərbə alırdısa, bir o qədər də çox böyüyürdü, iri bədən sahibi olurdu. Təpəgöz sanki insanlardan aldığı zərbə, ağrı hesabına böyüyürdü. Ehtimal ki, o, hələ pərdə içində olarkən heç bir təpik "yeməsəydi", o, psixoloji baxımdan əzazil Təpəgöz olmazdı. Təbii ki, bu heç də mifin, dastanın məntiqinə uyğun olmazdı. İngilis antropoloqu V.Çekson apardığı müşahidələr əsasında belə bir qənaətə gəlmişdir ki, "yad planetlilərin ana bətnindəki həyatı on iki aydır. Onlar on iki ay ana bətnində yaşayır, dünyaya gəldikdən sonra sürətlə böyüyür, yetkinlik yaşına tez yetişir və uzun ömür sürürlər" [ 16,171].

Təpəgöz, qrup həyatı üçün səciyyəvi olan birgəyaşayış qaydalarına, sosial normalara əməl etmədiyi üçün Oğuz elinin şikayət əsasında Aruz tərəfindən qovulur. Təpəgözün Oğuz elindən - içində yaşadığı və böyüdüyü qrupdan, qovulması onun açıq və qəzəbini alovlanmasına, intiqam və qisas hissinin güclənməsinə səbəb oldu.

O da maraqlıdır ki, Təpəgözün bədəninin oxbatmaz, qılınckəsməz olması, məhz onun Oğuz elindən qovulduqdan sonra baş verir. Dastanda oxuyuruq: "Dəpəgözün pəri anası gəlüb oğlının parmağına bir yüzük keçürdi. "Oğul, sana ox batmasun, tənüni qılıc kəsməsün!"- dedi. [14,126] Deməli, Təpəgözün bədənini oxdan, qılıncdan və hər cür kənar müdaxilədən qoruyan qüvvə onun barmağına keçirilən üzüklə bağlıdır.

İnsan bədəninin tərkibində ön dörd kimyəvi elementin (oksigen, karbon, hidrogen, azot, kalsium, kükürd, natrium, xlor, maqnezium, dəmir, manqan, mis, yod) olduğu artıq sübut olunmuş elmi faktdır [17, 239]. Çobanın Pəri qızı ilə olan cimasından əmələ gələn Təpəgözün fərqli kimyəvi tərkibli bədənə malik olması heç bir şübhə doğurmur. Pəri qızı cin tayfasının nümayəndəsi olaraq, oddan yaradılmış varlıq kimi fərqli kimyəvi tərkibli bədənə malikdir. Deməli, insan bədəninə məxsus kimyəvi tərkiblə, cin bədəni üçün səciyyəvi kimyəvi tərkibin birləşməsi, üstəgəl metaldan hazırlamış bir üzüyün barmağına keçirilməsi Təpəgözün bədənində metamarfozanın (dəyişilmə) baş verməsinə səbəb olmuşdur. Nəticədə, anası Pəri qızının barmağına keçirdiyi üzük Təpəgözün bədəni ilə təmasda olduqda, elə bir mühafizə qatı yaradır ki, ora heç bir yad cisim, kənar qüvvə müdaxilə edə bilmir. Üzüklə bağlı diqqəti çəkən məqamlardan biri də odur ki, Basatla qarşılaşdığı səhnədə Təpəgöz üzüyünü Basata verir və deyir: "Mərə oğlan, al şol barmağımdakı yüzügi, parmağına taq, sana ox və qılıc kar eyləməsün" [14,130]. Basat üzüyü barmağına keçirir, lakin üzük onun barmağında durmur diyirlənərək Təpəgözün ayağı altına düşür. Deməli, həmin üzük yalnız Təpəgözün barmağı və bədəni üçün kodlaşdırıldığına görə Basat ondan istifadə edə bilmir.

Bu mənada mifin Təpəgözün barmağına üzük keçirməklə mühafizə altına almasında məqsədi ona yüklədiyi vəzifəni başa çatdırması idi. Onu da qeyd edək ki, mif Təpəgözün barmağına üzük keçirməklə metalın, dəmirin insan üçün nə qədər faydalı bir funksiya yerinə yetirdiyinə işarə edir. Müasir dövrdə də xalq arasında belə bir inanc var ki, paltarda dəmir sancaq olduqda şər qüvvələr (cin, şeytan və s.) insana yaxınlaşa bilmədiyi üçün ona xətər yetirə bilmir. Folklor nümunələrində belə hadisələr də təsvir olunur ki, insanlar cin tutduqda üstlərinə sancaq, iynə keçirməklə, onların maddi aləmdə qalmalarını təmin edir və özlərinə tabe edirlərmiş. Belə qənaətə gəlmək olar ki, insanlar dəmirin gücünə inandıqları üçün şər qüvvələrin hakimiyyətinə düşməkdən qorunmaq məqsədilə metal sancaq və ya üzükdən istifadə ediblər. Od mənşəyli olan varlıqlar üçün isə dəmir təhlükə mənbəyi olduğu üçün ondan qaçır, uzaq olmağa çalışırdılar. Görünür, dəmir maqnit sahəsinin yaranmasına səbəb olur və həmin varlıqlar yerin cazibə qüvvəsinin təsirinə düşdükdə öz dünyalarına keçə bilmədikləri üçün dəmirdən, metaldan qorxur və qaçırdılar. Deməli, insanlar metalın mühafizəedici gücünə dərindən inandıqları üçün paltarlarında metal sancaq, iynə gəzdirər, barmaqlarına üzük taxardılar. Qurani-Kərimin "əl-Hədid" surəsinin 25-ci ayəsində yazılır ki, "Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik..." [1,404].

Boyda diqqəti çəkən obrazlardan biri də Basatdır. Uşaqlığını şir sürüsündə yaşayan, sonradan insanlar arasına gətirilən Basatla Təpəgözün müqayisəsi maraqlı nəticələr verir. Təpəgöz atılmış, Basat isə, tapılmış uşaq obrazı kimi dastana daxil edilmişdir. Şir himayəsində böyümüş Basat insan qayğısı və sevgisi görməklə, xilaskara çevrildiyi halda, insan südü ilə əmizdirilən, insan əhatəsində yaşayan Təpəgöz dünyaya göz açdığı andan aldığı zədə, sevgi və nəvaziş çatışmazlığı ucbatından bəlaya çevrilir. Bu iki obraz bioloji və sosial olanın bir-birini necə tamamlamasını və inkişafı vəhdətdə saxladığını sübut edir. Digər tərəfdən, ictimai həyat, birgəyaşayış müəyyən qadağaların olmasını zəruri edir. Bu, qayda və sosial normalara əməl etməmək isə ictimai həyatın nizamının pozulması ilə nəticələnir.

*(Davamı var)*

***Ceyhun ALIYEV,***
***psixologiya üzrə fəlsəfə doktoru, dosent***
***Azərbaycan Dillər Universiteti***

*ceyhunaliyev@mail.ru*